Beş şey fitrətdəndir: sünnət olmaq, övrət yerini qırxmaq, bığları qısaltmaq, dırnaqları tutmaq və qoltuq altındakı tükləri yolmaq

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Mən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Beş şey fitrətdəndir: sünnət olmaq, övrət yerini qırxmaq, bığları qısaltmaq, dırnaqları tutmaq və qoltuq altındakı tükləri yolmaq".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu hədisdə İslam dininin beş xüsusiyyətini və peyğəmbərlərin sünnətini bəyan etmişdir: Birincisi: Sünnət olmaq. Bu, kişinin cinsiyyət orqanının baş tərəfində olan artıq dərinin və həmçinin qadının vaginasındaki uşaqlıq yolunun üzərində olan dərinin baş hissəsinin kəsilməsidir. İkincisi: Övrət yerini qırxmaq. Bu, övrət yerinin ətrafında olan tüklərin qırxılmasıdır. Üçüncüsü: Bığları qısaltmaq. Bu, kişinin üst dodağı görünənə qədər bığların qısaldılmasıdır. Dördüncüsü: Dırnaqların qısaldılmasıdır. Beşincisi: Qoltuq altındakı tüklərin yolunmasıdır.

http://www.sunnah.global/hadeeth/az/show/3144